UOT 327

# AVROİNTEQRASİYA BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNİN OBYEKTİV PROSESİ KİMİ

**Əzizə GÜLÜMCANLI***

***Açar sözlər:*** *Avrointeqrasiya, beynəlxalq münasibətlər sistemi, inteqrasiya, proses*

***XÜLASƏ***

Beynəlxalq münasibətlərin hazırkı mərhələsinin inkişafının xüsusiyyəti ikiqütblü sistemin süqutu, dövlətlər və dövlət blokları arasında münasibətlərin xarakterini müəyyən edən yeni yanaşmaların formalaşması ilə xarakterizə olunan yeni dünya nizamının qurulmasıdır. Burdan yola çıxaraq deyə bilərik ki, tarixən inteqrasiya məsələlərinin inkişafı məhsuldar qüvvələrin artmasının təbii nəticəsi olmuşdur ki, bu da subyektlər arasında daha etibarlı əlaqə və münasibətlərin yaradılmasını və əməkdaşlığa mane olan çoxsaylı maneələrin aradan qaldırılmasını tələb etmişdir. Bu baxımdan, bizim tədqiqatımızda inteqrasiya terminin konseptual bazası araşdırılır, bu konseptual baza əsasında avrointeqrasiya prosesi sistemli təhlil olunur və təhlilin nəticələri ümumiləşdirilir.

**Giriş**

Dünyanın beynəlxalq münasibətlər sisteminin hazırkı mərhələsini əminliklə turbulent vəziyyət kimi xarakterizə etmək olar. Belə ki, beynəlxalq münasibətlər ikiqütblü ideoloji qarşıdurma sisteminin süqutundan sonra dövlətlər və bloklar arasında münasibətlərin xarakterini müəyyən edən yeni yanaşmaların formalaşması ilə xarakterizə olunan yeni dünya nizamının qurulması mərhələsinə keçmişdir. Lakin SSRİ və sosialist düşərgəsinin süqutundan 30 ildən artıq müddət keçməsinə baxmayaraq, konkret parametrlərlə müəyyən oluna biləcək yeni beynəlxalq münasibətlər sistemi formalaşmamışdır.

İkiqütblü dünyanın parçalanması qlobal sistem haqqında formalaşmış, tanış təsəvvürlərin dəyişməsinə səbəb olmuş və bununla da onun elementlərini siyasi, tarixi və sosial-iqtisadi transformasiyaları yenidən düşünməyə, prioritet strateji məqsədləri və onlara nail olmaq yollarını axtarmağa sövq etmişdir. Hal-hazırda beynəlxalq münasibətlər sistemində olduqca böyük aktuallıq kəsb edən inteqrasiya da məhz bu yollardan biridir.

**1. İnteqrasiya proseslərinin konseptual mahiyyəti**

İnteqrasiya termini bu gün bizim qəbul etdiyimiz formasını alana qədər illər boyunca təkamül keçirmiş və indikindən daha fərqli anlamlar kəsb etmişdir. Əvvəlcə qeyd etmək lazımdır ki, latın sözü olan "integratio" "bərpaetmə", "tam doldurma" deməkdir [6, s. 11]. Deməli, ümumi məfhum sistemin, orqanizmin ayrı-ayrı diferensiallaşmış hissələrinin və funksiyalarının bütövə bağlılıq vəziyyəti, habelə belə vəziyyətə gətirib çıxaran proses kimi şərh olunur. Terminin özünə diqqət yetirsək, Birləşmiş Krallığın milli ensiklopediyası olan "Britannica" ensiklopediyasına əsasən, "inteqrasiya" termini müstəqil və ya muxtar ictimai-siyasi subyektlər (qohumluq qrupları, tayfalar, şəhərlər, ölkələr, həmkarlar ittifaqları, ticarət birlikləri, siyasi partiyalar) arasında münasibətlərin keyfiyyətinin hər birinin müstəqilliyini və ya muxtariyyətini azaldacaq şəkildə transformasiyası prosesini ifadə edir [5, s. 411].

* *AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*E-mail: ezizeayaz@gmail.com*

"İnteqrasiya" anlayışına başqa bir tərif də Kaplan tərəfindən verilir. Beynəlxalq münasibətlərdə sistem təhlilinin banisi M. Kaplanın tərifinə görə, inteqrasiya iki və ya daha çox hissənin vahid bütövlükdə birləşməsi və ya "başqalarının bir sistemi tərəfindən udulması" deməkdir [7, s. 35].

Qeyd edək ki, "inteqrasiya" termini "sistem" anlayışından kənarda sayıla bilməz. Eyni zamanda, sistem anlayışının çoxsaylı şərhlərinin mövcudluğu bu anlayışın tərifini sistemlərin ümumi nəzəriyyəsi çərçivəsində təcrid etməyin mümkünsüzlüyünü göstərir. Bu zaman sistem anlayışından L. Bertalanffi tərəfindən tərtib edilmiş "qarşılıqlı təsir göstərən komponentlər kompleksi" kimi istifadə etmək məqsədəuyğundur. A. D. Hall və R. E. Fagin amerikalı alimlərin tərifinə görə, sistem "bir-biri ilə əlaqədə olan, vahid bütövlük təşkil edən elementlər toplusu" olaraq başa düşülməlidir. Onlar sistemə həmçinin "obyektlərin mövcudluğu şəraitində obyektlər və onların atributları arasında əlaqələr" kimi baxırlar [1, s. 40].

Tarixən inteqrasiya məsələlərinin inkişafı məhsuldar qüvvələrin artmasının təbii nəticəsi olmuşdur ki, bu da subyektlər arasında daha etibarlı əlaqə və münasibətlərin yaradılmasını və əməkdaşlığa mane olan çoxsaylı maneələrin aradan qaldırılmasını tələb edirdi. Amma bu proses çoxlarının düşündüyü kimi təkcə qarşılıqlı faydalı iqtisadi, hərbi və mədəni əməkdaşlıq deyil, siyasi razılaşmalar əsasında millətlərarası inteqrasiya birlikləri çərçivəsində də mümkün olmuşdur.

Siyasi inteqrasiya suveren siyasi subyektlər, məsələn, dövlətlər arasında münasibətlərin xarakterində müşahidə edilə bilər. Alan V. Deardorffun yanaşmasına əsasən, inteqrasiya prosesi ərzində bu subyektlər könüllü olaraq bir növ yeni mərkəzi hakimiyyəti qəbul edirlər. Bu proses ən azı dörd tərkib elementi tələb edir: (a) iştirak edən siyasi subyektlər inteqrasiya siyasətini formalaşdıran və icra edən mərkəzi institutların yaradılmasına icazə verməlidir; (b) bu mərkəzi orqanın funksiyaları vacib və spesifik olmalıdır; (c) mərkəzi qurumlar tərəfindən yerinə yetirilən funksiyalar və ya tapşırıqlar mahiyyət etibarı ilə ekspansiv olmalıdır; (d) siyasi bölmələr ümumi müəssisəyə sadiq qalmalıdırlar [3].

Deardorff həmçinin qeyd edir ki, inteqrasiya beynəlxalq münasibətlər sistemində ayrı-ayrı ölkələrin siyasətlərinin yekdil siyasi vahid kimi qəbul edilməsini nəzərdə tutur. Siyasi inteqrasiyanın iqtisadi dərəcəsi tez-tez müxtəlif milli bazarlarda faiz dərəcələrinin və ya səhm qiymətlərinin və ya malların qiymətlərinin eyni olub-olmadığını görməklə yoxlanılır [3, s. 23]. Ümumilikdə çox vaxt inteqrasiyaya iqtisadi mənada, xüsusən də bir qrup dövlətin milli bazarlarının zaman keçdikcə iqtisadi və siyasi birliyə çevrilə bilən vahid iqtisadi kompleksə tədricən birləşməsi kimi baxılır.

## 2. Avrointeqrasiyanın beynəlxalq münasibətlər sistemində yeri

Ölkənin müəyyən bir ittifaqa daxil olmasının məqsədi uzun müddət yüksək artım tempinə şərait yaratmaq və mənfi xarici təsirləri (maliyyə, xammal amilləri və digər qüvvələrdən) aradan qaldırmaqdır. Başqa sözlə desək, inteqrasiya özünəməxsus iqtisadi-siyasi bir prosesdir. Ona görə də onu dostluq, qonşuluq anlayışları ilə qarışdırıb uğurlu inteqrasiya kimi mehriban qonşuluqdan, dostluqdan, əməkdaşlıqdan danışmaq olmaz. İnteqrasiya təkcə dostluq və əməkdaşlıq deyil. Bu, öz keyfiyyətinə görə 20-ci əsrin diplomatik, hərbi və iqtisadi təcrübəsindən xeyli kənara çıxan bir sıra şərtləri nəzərdə tutur.

20-ci əsrin diplomatik, hərbi və iqtisadi təcrübəsindən kənara çıxmaq dedikdə, bu ifadəni bir az açmaq lazımdır. Misal üçün Qərbi Avropanın inteqrasiya praktikasına nəzər salanda aşağıdakıları görmək mümkündür:

1. Avrointeqrasiya İkinci Dünya Müharibəsinin spesifik şəraitində siyasi və iqtisadi institutların zəifləməsi, ABŞ-ın Marşal planı vasitəsilə qitə ölkələrini öz təsir dairəsinə salmaq cəhdlərinin fonunda soyuq müharibə dövrünün başlanğıcında yaranıb.

2. Avrointeqrasiya iki ölkə - Fransa və AFR arasında uzunmüddətli düşmənçiliyi aradan qaldırmaq şərti ilə mümkün oldu. Bu iki siyasi güc inteqrasiyanın əsasını qoydu. Tədricən onlara prosesin digər iştirakçıları da qoşuldu.

3. İnteqrasiya yalnız milli dövlətlərin uzunmüddətli təkamülü və siyasi elitanın yüksək mədəniyyət səviyyəsinə çatması ilə deyil, bütün cəmiyyətdə yüksək siyasi, iqtisadi və hüquqi mədəniyyətin olması şərti ilə mümkün olmuşdur. Ölkələr inkişaf üçün bütün daxili imkanlarını əlaqələndirmişdir. Bu həlli sadə olan bir problem deyil. Avropa İttifqaında yarım əsrdir ki, həll olunmaqda olan, amma tam həll olunmayan bir problemdir.

4. İnteqrasiya təkcə siyasi bəyannamələr və bəzi səs-küylü sənədlərin imzalanması ilə başlamır. Misal üçün, Hicran Hüseynovanın tədqiqatına əsasən, avrointeqrasiya müəssisələr və sənayelər səviyyəsində başladı. Bu, qiymət və gömrük xarakterli bir çox problemləri həll etməyə imkan verdi. Avropada yalnız 1950-1960-cı illərin "toyuq", "şərab", "ət", "taxıl" problemləri həll olunduqdan sonra təhsil, tibb, təqaüd və s. məsələlər öz həllini tapmağa başladı. Bundan sonra isə yavaş-yavaş ideoloji ziddiyyətlərin aradan qaldırılması mexanizmlərinin tapılmasına başlandı və avrointeqrasiya özünün yeni mərhələsinə qədəm qoydu [4].

5. Avrointeqrasiya göstərdi ki, iştirakçı ölkələr baxımından inkişaf yetkinlikləri fərqli idi. Həmçinin ölkələrin bu sahədəki maraq və mənafeləri və bu maraq və mənafelərdən irəli gələn məqsəd və vəzifələri də fərqli idi. İnkişaf baxımından geridə qalmış ölkələri "irəli çəkmək" üçün əvvəlcə səylərin əlaqələndirilməsi və xeyli vəsait lazımdır. Bunun üçün xüsusilə AFR tərəfindən maliyyələşdirilən xüsusi proqramlar hazırlanmışdı.

6. İnteqrasiya yalnız konkret problemlərin həllini tapmasına kömək edirsə, səmərəlidir. Eləcə də ölkənin hər bir vətəndaşı müsbət nəticə hiss edirsə, həyat qabiliyyətlidir. Ancaq bütün bunlar müəyyən bir keçid dövrü olmadan baş verə bilməz. Misal üçün, avrozonada milli valyutaların ləğvi və avronun dövriyyəyə buraxılması uzun müddət müəyyən diskomfort yaratdı.

7. Unutmaq olmaz ki, inteqrasiya bütün problemlər üçün həll yolu deyil. Polşa, Macarıstan, Çexiya, Slovakiya, Baltikyanı ölkələrin təcrübəsi göstərdiyi kimi, hər bir ölkə öz problemlərini həll etmək üçün öz gücü ilə maksimum səy göstərməli, başqalarına arxalanmamalıdır. Görünür, inteqrasiyanın da müəyyən həddi var. 6 ölkənin maraqlarını birgə səfərbər etmək, əlbəttə ki, 9, 12, 15 və ya 20 ölkənin maraqlarını birgə səfərbər etməkdən qat-qat asandır. Bununla yanaşı, qloballaşmanın ən pik mərhələsində belə milli kimlik hissləri hələ də hökm sürmüşdür və bu baxımdan, onlara hörmət edilməli və millik kimlik hissləri inteqrasiya zamanı nəzərə alınmalıdır.

Bununla yanaşı, Şəbnəm Zeynalovanın tədqiqatına əsasən, avrointeqrasiyanın inkişaf etməsində inteqrasiya proseslərində baş verən qanunauyğunluqların və onların inkişaf istiqamətlərinin və perspektivlərinin müəyyən edilməsi xüsusi əhəmiyyətə malik olmuşdur [8].

Avrointeqrasiya nəticəsində yaranmış Avropa İttifaqının bəzi tarixi formalaşma xüsusiyyətlərinə nəzər yetirdik. Bunun nəticəsində gördük ki, inteqrasiya üçün müəyyən bir tarixi şərait yetişməli, beynəlxalq münasibətlər buna əlverişli olmalı və ölkə ictimai-siyasi, həmçinin mədəni baxımdan müvafiq hüquqi tənzimləmələr üçün hazır olmalıdır. Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, inteqrasiya uzun və mürəkkəb bir prosesdir və bu proses zamanı həm müsbət, həm də mənfi hadisələrə şahid olmaq mümkündür.

Beynəlxalq siyasi nöqteyi-nəzərdən əsas suallardan biri inteqrasiya tendensiyası perspektivləri və əsasən iqtisadi, sosial və mədəni inteqrasiya prosesinin siyasi birləşməyə doğru inkişaf edib-etməyəcəyidir. Beynəlxalq siyasi elmdə və dünya praktikasında Avropa İttifaqının təcrübəsinə əsaslanan inteqrasiya mərhələləri modeli geniş şəkildə qəbul edilir [2, s. 52]:

1) azad ticarət zonasının yaradılması (qarşılıqlı ticarətdə gömrük maneələri aradan qaldırılır);

2) gömrük ittifaqı (üçüncü ölkələrə münasibətdə vahid ticarət tarifləri müəyyən edilir);

3) ümumi bazar (əmtəələrin sərbəst hərəkəti ilə yanaşı, xidmətlərin, kapitalın və işçi qüvvəsinin hərəkəti təmin edilir);

4) iqtisadi və pul ittifaqı (iqtisadi siyasətin tənzimlənməsinin ümumi sistemi və pul sistemi yaradılır).

Burada dərk etmək lazımdır ki, hər hansı bir ölkənin mövcudluğu başqaları ilə qarşılıqlı əlaqəni nəzərdə tutur və bu, beynəlxalq münasibətlərin əsas prinsipidir. Ölkələr arasında qarşılıqlı əlaqənin daha yüksək səviyyəsi olan inteqrasiya amili beynəlxalq münasibətlərin müasir inkişafı

mərhələsində ən böyük əhəmiyyət kəsb etmişdir. Dünya siyasəti bütün dünya dövlətlərinin birgə fəaliyyətindən təsirlənir və bununla da qlobal kontekstdə baş verir. Hər bir ölkənin beynəlxalq sistemdə tutduğu yerdən və ölkə daxilindəki siyasi vəziyyətdən asılı olaraq özünəməxsus rolu vardır. İnteqrasiya prosesləri və yeni texnologiyaların inkişafı ilə əlaqədar dünyanın siyasi, iqtisadi, mədəni, informasiya və sosial asılılığı beynəlxalq münasibətlərdə müdafiə vasitəsi deyil, həm də hücum əlaməti olan müəyyən kateqoriyaların nisbətinin dəyişməsinə səbəb olmuşdur. Nəticədə dünya qlobal sistemdir, onun elementləri bir-biri ilə bağlıdır, müxtəlif ziddiyyətlərdə müəyyən birliyi təmsil edir. Bu, öz növbəsində, geostrateji məkanın yeni rekonstruksiyasından və planetar inkişafın yeni vektorundan xəbər verir ki, onun çərçivəsində yeni əlaqələr sistemi və geosiyasi məkanlar yaradılır.

**Nəticə**

Beləliklə, tədqiqatımızda inteqrasiya məfhumunu açdıq, onun terminoloji tərəfinə toxunduq, beynəlxalq münasibətlər sisteminin bir elementi olan inteqrasiya ilə bağlı nəzəri-konseptual yanaşmaları ortaya qoyduq. Həmçinin müəyyən tədqiqatçıların müddəalarına tənqidi yanaşma sərgiləyərək onların təhlilini apardıq. Bu baxımdan ümumiləşdirərək söyləmək mümkündür ki, inteqrasiya terminin əsas təriflər "Britannica" ensiklopediyası və Kaplan tərəfindən verilmişdir.

Həmçinin qeyd edə bilərik ki, avrointeqrasiya uzun və mürəkkəb bir prosesdir və bu proses zamanı həm müsbət, həm də mənfi hadisələrə şahid olmaq mümkündür. Bu baxımdan, inteqrasiya üçün müəyyən bir tarixi şərait yetişməli, beynəlxalq münasibətlər buna əlverişli olmalı və ölkə ictimai-siyasi, həmçinin mədəni baxımdan müvafiq hüquqi tənzimləmələr üçün hazır olmalıdır. Çünki hər hansı bir ölkənin mövcudluğu başqaları ilə qarşılıqlı əlaqəni nəzərdə tutur və bu, beynəlxalq münasibətlərin əsas prinsipidir.

Həmçinin ümumiləşmiş şəkildə beynəlxalq münasibətlər sistemində inteqrasiya məsələlərini tədqiq etmiş elmi ədəbiyyata belə bir tənqidi yanaşma vermək mümkündür ki, çox vaxt tədqiqatlarda inteqrasiya bu prosesin baş verdiyi konkret regiona, bu regionun və ya inteqrasiya edən qrupa daxil olan ölkələrin xüsusiyyətlərinə bağlı olmadan nəzərdən keçirilir və Avropa İttifaqının tarixi inteqrasiyasının prinsip və xüsusiyyətləri əsas götürülür.

## ƏDƏBİYYAT


1. Beeson M. Regionalism and Globalization in East Asia: Politics, Security, Economic Development / Mark Beeson. – N.Y.: Palgrave Macmillan, 2007. 320 pages.
2. Caporaso J.A., Rhodes M. The Political and Economic Dynamics of the Eurozone Crisis, Oxford: Oxford University Press, 2016. 304 pages.
3. Deardorff A.V. The Past, Present and Future of the European Union, London: Palgrave Macmillan UK, 2004. 225 pages.
4. Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində, Bakı: Azərbaycan, 2001. 314 səh.
5. Integration, Encyclopædia Britannica, 15th Edition, Volume 3, London: Encyclopædia Britannica Inc., 2010. 660 pages. p. 411
6. Jovanović M.N. The Economics of International Integration, Cheltenham: Edward Elgar Publishing, 2016. 736 pages.
7. Kaplan M. System and Process in International Politics / M. Kaplan. – N.Y., 1957. – 283 pages.
8. Zeynalova Ş. Avropa İttifaqı çərçivəsində inteqrasiya prosesləri: problemlər və onların həlli perspektivləri, Bakı: Elm və təhsil, 2021. 221 səh.

### *РЕЗЮМЕ*

***Азиза ГУЛУМДЖАНЛИ***

***Евроинтеграция как объективный процесс системы международных отношений***

***Ключевые слова:*** *европейская интеграция, система международных отношений, интеграция, процесс*

Особенностью развития современного этапа международных отношений является распад биполярной системы, установление нового миропорядка, характеризующегося формированием новых подходов, определяющих характер отношений между государствами и государственными блоками. Исходя из этого, можно сказать, что исторически развитие вопросов интеграции было закономерным результатом роста производительных сил, что требовало установления более надежных контактов и отношений между субъектами и устранения многочисленных барьеров на пути сотрудничества. С этой точки зрения в нашем исследовании изучается понятийная база термина интеграция, на основе этой понятийной базы систематически анализируется процесс европейской интеграции и подводятся итоги анализа.

### *SUMMARY*

***Aziza GULUMCANLI***

***Eurointegration as An Objective Process of the International Relations System***

***Keywords:*** *European integration, system of international relations, integration, process*

The peculiarity of the development of the current stage of international relations is the collapse of the bipolar system and the establishment of a new world order, characterized by the formation of new approaches that determine the nature of relations between states and state blocs. Based on this, we can say that historically, the development of integration issues has been a natural result of the growth of productive forces, which required the establishment of more reliable contacts and relations between the subjects and the elimination of numerous barriers to cooperation. From this point of view, in our research, the conceptual basis of the term "integration" is studied, and based on this conceptual basis, the process of European integration is systematically analysed and the results of the analysis are summarized.